# Gələcək biznes və ya Milli Marketinq Forumunda

Daha əvvəldə bildiyiniz kimi, Milli Marketinq Forumu Azərbaycanımızda keçirilən ilk biznes tədbirdir. Biz bunu düz 7 il əvəvl həyata keçirəndə ölkədə Forum və ya Milli sözünü çox az işlədilirdi. Əksinə Milli sözünün yerinə qlobal – beynalxalq terminləri daha çox “sevilirdi”. Buna baxmayaraq bil yaxşı başa düşürdük – Biznes lokal olduğu zaman güclü olur. Bu ildə Milli Marketinq Forumu keçiriləcəkdir və mən bu Forumda biznes trendlər barədə fikirlərimi bölüşəcəm.

Daha konkret desək, bizim panelimizin adı Biznes 2025 olacaqdır. Biz dəyərli spikerlərimizlə bir araya gələrək gələcəyin biznesləri, yeni trendlər barədə fikirlərimizi paylaşaceyik. Əsas vacib cəhət isə, bu trendlərin Azərbaycanımıza özəl formada təqdim ediləcək. Bizim tədbirlərin kökündə praktik yanaşma dayanır və təsadüfi deyil, Milli Marketinq Forumundada deyilənlər olacaq.

Forumumuz may ayında keçiriləckdir – 2 gün. Daha konkret desək, may ayının 25- 26 olacaq. Biz Forum çərçivəsində ümumi olaraq 6 panel təşkil edəcəyik. Bunlar aşağıdakılar olacaqdır:

1. Milli Keyslər
2. Marketinq kommunikasiyaları
3. Rəy liderləri
4. Rəqəmsal marketinq
5. Yeni biznes trendləri. Biznes 2015
6. Biznes strateqiyalar – müştəri davranışları.

Hesab edirəm ki, hər bir paneldə kifayət qədər bilikli spikerlər – dostlarımızı cəlb edə biləcəyik. Hər bir Forumun dəyəri orda olacaq spikerlər və onların tədbir iştirakçılarına verdiyi kontent olur. Həmçinin daha vacib məsələ, bizim təşkil etdiyimiz biznes görüşlərində tanışlığa – əlaqələr qurmağa ciddi əhəmiyyət verilir.

Marketinq AİR-də olan istiqamət daim gözlənilir. Hər birinizi may ayında olacaq, Milli Marketinq Forumunda gözləyəcəm.

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Pərakəndə ticarət barədə
- Kiçik addımların biznesdə rolu